**İ.A.CƏFƏROVA**
*e-mail: ismetceferova6@gmail.com*
**:https://orcid.org/0009-0007-4137-5246**

**Naxçıvan Dövlət Universiteti**
(Naxçıvan şəh., Universitet şəhərciyi, Xətai 7012)



**10.62021/0026-0028.2025.2.137**


## AZƏRBAYCAN VƏ İNGİLİS ƏDƏBİYYATLARINDA SENTİMENTALİZMİN ƏXLAQİ-ESTETİK PARADİQMALARI


***Xülasə.*** *Məqalədə sentimentalizmin ümumavropa ədəbiyyatında formalaşması və estetik prinsipləri fonunda Azərbaycan ədəbiyyatında təşəkkülü və inkişaf istiqamətləri sistemli şəkildə təhlil olunur, ingilis və Azərbaycan ədəbiyyatları arasında ideya-estetik paralellər aparılır, sentimentalizmin milli ədəbiyyatımızda təzahür formaları müəyyənləşdirilir. Həmçinin məqalədə sentimentalizm cərəyanın maarifçilik və romantizmlə qarşılıqlı əlaqələri və ədəbi-estetik əhəmiyyəti elmi əsaslarla təhlil edilir.*



***Açar sözlər:*** *sentimentalizm, təbii hisslər, milli-estetik xüsusiyyətlər, maarifçilik*


Sentimentalizmin ədəbi cərəyan kimi ümumavropa təzahürü olduğunu və hər ölkənin özünəməxus tarixi-sosial şəraiti və mövcud feodal-mütləqiyyət rejiminin, yaşadığı böhranın fərqli olduğunu nəzərə alaraq Azərbaycan, fransız, alman və rus ədəbiyyatındakı sentimentalistlərin əsərlərinin təhlili əsasında bu cərəyanın ümumbəşəri ideyalarla yanaşı, hər bir ədəbiyyatda milli xüsusiyyətlərə uyğun şəkildə təzahür etdiyini görmək mümkündür. Belə ki, fransız ədəbiyyatında J.J.Russo, alman ədəbiyyatında İ.V.Höte, rus ədəbiyyatında N.Karamzin, Azərbaycan ədəbiyyatında isə A.Bakıxanov, İ.Qutqaşınlı, A.Divanbəyoğlunun əsərlərində, C.Cabbarlının bəzi hekayə və pyeslərində insanın daxili aləmi, hiss və duyğuları ön plana çıxarılır. Bu hisslərin ifadə tərzi və məzmunu həmin cəmiyyətlərin spesifik tarixi-siyasi şəraitini əks etdirir. Bu baxımdan, sentimentalizmin hər bir ölkədə ümumi cizgilərlə yanaşı, fərqli ictimai və mədəni kontekstlərdə formalaşdığı və inkişaf etdiyi aydın şəkildə müşahidə olunur. Professor Hüseyn Həşimov "Azərbaycan ədəbiyyatında sentimentalizm" adlı tədqiqat işində qeyd edir ki, "Qərbdə sentimentalizm, romantizm və tənqidi realizm bir-birini əvəz etdiyi halda, Azərbaycanda inkişafın spesifikasının nəticəsi kimi, C.Məmmədquluzadənin satirik realizmi, Ə.Hüseynzadənin romantizmi, sentimentalizm və b. üslub istiqamətləri əsrimizin əvvəllərində təxminən eyni vaxtda yarandı" [4, s. 63].

İnsan duyğularının və emosional təcrübələrinin təsvirinə əsaslanan Azərbaycan sentimentalizmi ədəbi cərəyan kimi Qərb və Şərq sentimentalizminin təsiri ilə təşəkkül tapmış və yerli ədəbi mühitdə maarifçilik və romantizm cərəyanları ilə sıx əlaqədə inkişaf etmişdir. Bu cərəyanın əsas mövzuları sırasında sadə insanların mənəvi dünyası, təbiətə bağlılıq və insani dəyərlərin təbliği mühüm yer tutur.

Ədəbi tədqiqatlarda sentimentalizm çox vaxt müstəqil cərəyan kimi deyil, romantizmin daxilində inkişaf edən üslubi istiqamət kimi təqdim olunmuşdur. Azərbaycan ədəbiyyatında

1906-cı ildə Əli bəy Hüseynzadənin redaktorluğu ilə nəşr edilən "Füyuzat" jurnalı meydana çıxdıqdan və xüsusən, həmin jurnalın 1 noyabr 1906-cı il tarixli ilk sayında baş redaktorun "Həyat" və "Füyuzat" adlı məqalə ilə romantizmin xüsusiyyətlərini bəyan etməsindən sonra ədəbiyyatda romantiklərlə sentimentalistlərin yolları ayrılmağa başlamışdır. Əli bəy Hüseynzadənin romantizmin estetik prinsipləri üçün zəruri hesab etdiyi "səadəti-mənəviyyə"ni təsvir və tərənnüm etmək yolunu seçənlər romantik ədəbiyyat xəttini, "hissiyyati-təbii" üsulunu əsas kimi qəbul edənlər isə sentimentalizm yolunu davam etdirmişlər [3, s. 353].

Azərbaycan ədəbiyyatında sentimentalizm ədəbi cərəyan kimi kapitalist münasibətlərinin formalaşdığı tarixi mərhələdə, dünya ədəbiyyatındakı analoji inkişaf prosesləri fonunda meydana gəlmişdir. Cəmiyyətdə gedən ictimai-siyasi dəyişikliklərə qarşı narazılıq ifadə edən sənətkarların kənd həyatına və təbiətə üz tutması, bədii obrazların daxili azadlığa qovuşmaq arzularını təbiətdə gerçəkləşdirməyə çalışmaları Azərbaycan sentimentalizminin xarakterik xüsusiyyətləri sırasında yer alır. Bu cərəyanın nümayəndələrinin yaradıcılığında insan taleyinin faciəvi anları, nakam məhəbbət, göz yaşları, mənəvi iztirablar və daxili tərəddüdlər əsas bədii mövzular kimi ön plana çəkilir. Bu cəhətlər sentimentalizmin Azərbaycan ədəbiyyatına qazandırdığı əsas insani və estetik dəyərlər sırasına daxildir. Sentimentalizm cərəyanı milli ədəbiyyatımıza təbii, saf və dərin emosionallıqla seçilən obrazlar gətirməklə, dövrün mənəvi-emosional ehtiyaclarını ifadə edən mühüm ədəbi mərhələ yaratmışdır.

Azərbaycan ədəbiyyatında sentimentalizm ədəbi cərəyanını təmsil edən yazıçı və şairlər Bakıda çıxan "Şəlalə" jurnalı və "İqbal" qəzetinin ətrafında birləşmişlər. Bu jurnal və qəzetin səhifələrində sentimental yazıçıların bədii əsərləri və məqalələri çap olunmuşdur [3, s. 355].

Azərbaycan sentimentalizmi fərqli mühit və zəmində formalaşmasına baxmayaraq, Avropa sentimentalizminin ümumi estetik prinsiplərini ehtiva etsə də bir sıra ədəbiyyatşünaslar qəti olaraq bu fikirdədirlər ki, sentimentalizm Azərbaycan ədəbiyyatı üçün xarakterik deyildir və Azərbaycan ədəbiyyatında sentimentalizm olmamışdır. Lakin Azərbaycan ədəbiyyatının tarixi-ədəbi inkişaf mərhələlərinə nəzər saldıqda görmək mümkündür ki, başqa xalqların ədəbiyyatında olduğu kimi, Azərbaycan ədəbiyyatının da ayrı-ayrı nümunələrində sentimental ünsürlərə, element və ştrixlərə rast gəlmək mümkündür [1, s. 27]. İsmayıl bəy Qutqaşınlının "Rəşid bəy və Səadət xanım", Abdulla bəy Divanbəyoğlunun "Can yanğısı" əsərləri, Cəfər Cabbarlının "Solğun çiçəklər" pyesi Azərbaycan ədəbiyyatında sentimentalizmin mövcudluğunun bariz nümunələridir.

Akademik F.Qasımzadə "Rəşid bəy və Səadət xanım" hekayəsini sentimentalizm cərəyanına aid etməyən tədqiqatçıların fikrinə zidd olaraq bildirmişdir ki, "Müəllif əsərdə bəzən lirik ricət və haşiyələrə yol verirsə də, əsas xəttdən uzaqlaşmır, yenidən mətləbə qayıdır. Təbiətin təsviri, dərin ailə məhəbbəti Səadətin öz taleyindən acı-acı şikayəti, ondakı məyusluq, ürək yanğısı "Rəşid bəy və Səadət xanım" hekayəsinə sentimental bir ruh vermişdir" [5, s. 190].

İ.Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" hekayəsi ilə ingilis sentimentalist yazıçısı Samuel Riçardsonun "Klarissa" romanının sentimentalizm baxımından müqayisəsi, Avropa və Şərq ədəbiyyatlarında baş verən ideya-estetik yaxınlaşmaların mövcudluğundan bəhs etməyə imkan verir. İnsan hissiyyatının, xüsusilə sevgi, sədaqət və əxlaqi təmizliyin ön plana çəkilməsi ilə diqqət çəkən hər iki əsər duyğuların üstünlüyü, fərdi psixologiyanın dərindən təqdim edilməsi, mənəvi katarsis və ictimai ziddiyyətlər fonunda fərdin daxili aləminin araşdırılması baxımından əhəmiyyətli nümunələrdir. S.Riçardsonun "Klarissa" əsərində baş qəhrəmanın başına gələn faciəvi hadisələr vasitəsilə oxucuya dərin emosional təsir göstərilir. Bu baxımdan sentimentalizmin əsas prinsipi olan "duyğular vasitəsilə tərbiyə" motivi açıq şəkildə təqdim olunur. Klarissa obrazı öz mənəvi bütövlüyünü qorumaq üçün həyatı bahasına mübarizə aparır, bu isə oxucuda həm rəğbət, həm də dərindən hiss olunan kədər doğurur.

İ.Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" hekayəsində isə Şərq sentimentalizminin milli-estetik xüsusiyyətləri aydın şəkildə özünü göstərir. Əsərdə Rəşid bəylə Səadət xanımın sevgi münasibətləri yalnız fərdi duyğular kontekstində deyil, həm də cəmiyyətin adət-ənənələ-

ri, ailə və sosial münasibətlər kontekstində təqdim olunur. Bu mənada, İ.Qutqaşınlı fərdi hissləri ictimai müstəvidə təqdim etməklə Şərq sentimentalizminə xas olan mənəvi və ailəvi dəyərlərin qorunmasını əsas ideya kimi önə çıxarır.

Hər iki əsərdə qəhrəmanların emosional yaşantıları süjetin əsas hərəkətverici qüvvəsidir. Həm Klarissa, həm də Səadət ailə basqısına, çətinliklərə məruz qalırlar, öz talelərində söz haqqına sahib deyillər, lakin bununla mübarizə aparırlar. S.Riçardsonun romanında psixoloji dərinlik və hisslərin introspektiv təqdimatı daha geniş şəkildə işlənmişdir. İ.Qutqaşınlı isə hisslərin təqdimatında sadə, lakin təsirli dil və bədii təsvir vasitələrindən istifadə edərək oxucunun emosional reaksiyasına yönəlir. Hər iki müəllif üçün əxlaqi nəticə və mənəvi dəyərlərin qorunması əsas hədəfdir. Klarissa obrazı ingilis burjuaziyasının əxlaqi dəyərləri fonunda formalaşdığı halda, Rəşid və Səadət obrazları Şərqin ailə və ictimai münasibətlər sistemində öz iç dünyalarını üzə çıxarırlar.

Eyni zamanda Rəşid obrazını Oliver Qoldsmitin "Veykfild ruhanisi" əsərindəki Keşiş Primrouz ilə müqayisə etmək mümkündür. Rəşidin daxili mübarizəsi, emosional vəziyyəti, cəmiyyətlə olan ziddiyyətləri və təbii aləmlə əlaqəsi sentimentalizmin təməl prinsiplərinə uyğun şəkildə təmsil olunur. Keşiş Primrouz obrazı da özünəməxsus şəkildə əsl insanlığı təcəssüm etdirir, insanları xeyirxahlığı, həssaslığı, fədakarlığı və zəhməti ilə qiymətləndirir. Hər iki əsərin qəhrəmanları qüsursuz olduğu üçün deyil, təbiətlə harmoniyada yaşadığı, sosial normaları deyil, ürəklərini dinlədiyi üçün ideal hesab olunurlar.

Müxtəlif mənbələrdə Azərbaycan romantizminin nümayəndəsi kimi təqdim edilən A.Divanbəyoğlunun "Can yanğısı" povesti birmənalı olaraq sentimentalizm cərəyanına aid edilir. Prof. P.Xəlilov bu barədə yazır: "A.Divanbəyoğlunun "Can yanğısı" povesti Azərbaycan ədəbiyyatında sentimental əsərin ən yaxşı nümunəsidir. Müəllif kəndi şəhərə qarşı qoyan, şəhər pozğunluğuna qarşı kəndlinin mənəvi-əxlaqi təmizliyini, şəhər kəsafətinə qarşı kənd abu-havasını, təbiət füsunkarlığını idealizə edən sentimentalistlərin yolu ilə getmişdir" [8, s. 266].

Yazıçı Əhməd obrazı vasitəsilə insanın daxili aləmini, keçirdiyi mənəvi sarsıntıları və həyatın zərbələrinə qarşı göstərdiyi səssiz müqaviməti incə və səmimi şəkildə təqdim edir. Əhmədin ailəsinə və doğmalarına olan münasibəti onun daxili aləminin açılmasında mühüm rol oynayır. O, itirdiklərinə görə sarsılır, amma bu sarsıntını nümayiş etdirmir. Onun "can yanğısı" daxildən gələn bir sükutla, sakit bir təslimiyyətlə ifadə olunur və bu da onu tipik sentimental obraza çevirir.

Həmçinin "Can yanğısı" əsərindəki Əhməd obrazı ilə Samuel Riçardsonun "Ser Çarlz Qrandisonun tarixçəsi" əsərindəki Çarlz obrazını sentimental aspektdən müqayisə etdikdə, hər iki obrazın müsbət mənəvi keyfiyyətlərə malik olduğunu, lakin duyğulara yanaşma tərzində, emosional davranışlarında və cəmiyyət qarşısında tutduqları mövqedə fərqliliklər olduğunun şahidi oluruq. Şərq sentimentalizminin təsiri altında formalaşan Əhmədin əsas duyğusu sevgi və vətən həsrətidir. O, dərin psixoloji sarsıntılar keçirir, bu duyğularını emosional, bəzən isə fatalist yanaşmalarla ifadə edir və duyğuları çox zaman onu tənhalığa, təslimiyyətə və daxili mübarizəyə aparır. Əhmədin əxlaqi idealları daha çox fərdi əzablar və daxili mənəvi saflaşma ilə bağlıdır. O, yaşadığı cəmiyyətin ədalətsizliyindən əziyyət çəkir və sentimental duyğular vasitəsilə bu ədalətsizliyə qarşı passiv müqavimət göstərir. Buna bənzər motivlərə C.Cabbarlının "Solğun çiçəklər" pyesində də rast gəlmək mümkündür. Bəhram da Əhməd kimi qərarsız obrazdır və hər iki obraz istəməyərək də olsa sevdikləri qadınların ölümünə səbəb olurlar.

Qərb sentimentalizminin klassik nümunəsi olan Çarlzın duyğuları, sevgi və mərhəməti isə əsərdə daha rasionallaşdırılmış formada təqdim olunur. O, emosiyalarını nəzarət altında saxlamağı bacarır və daim əxlaqi prinsiplərə söykənir. Çarlz öz hisslərini cəmiyyətə xidmət etməyə yönəltdiyindən həm romantik, həm də sosial məsuliyyət daşıyan ideal insan obrazı təsiri bağışlayır. Cəmiyyətin əxlaqi sütunlarından biri kimi təqdim olunan Çarlz başqalarına yardım edir, qadınlara qarşı mərhəmətli və ailə dəyərlərinə sadiqdir.

"Yeni məktəb" adlı əsərində isə A.Divanbəyoğlu sentimentalistlərin maarifçilik cərəyanına aid prinsiplərini, pedaqoji fikirlərini təhlil edir. Müəllif əsərdə burjua cəmiyyətinin yeni qaydalarına əsasən təlim-tərbiyə metodlarının da yenilənməsinin labüdlüyünü vurğulayır. Düzgün tərbiyə üçün mənəvi azalığı mühüm şərt sayan yazıçı yeni nəslin yeni qaydalar əsasında formalaşmasını vacib hesab edirdi.

Prof. H.Həşimovun da qeyd etdiyi kimi, Azərbaycan sentimentalistləri hissi idraka üstünlük vermiş, dünyanın hisslər vasitəsilə dərk olunmasının mümkünlüyünü məqbul saymış, xüsusən hisslərin saflığı və sərbəstliyinin təminatının insan səadəti üçün başlıca şərt kimi qiymətləndirmişlər [4, s. 64].

***Nəticə:*** Azərbaycan ədəbiyyatında sentimentalizm ədəbi cərəyanı Qərb ədəbiyyatındakı analoji inkişaf meyilləri ilə səsləşsə də, yerli tarixi-sosial şəraitin və milli-mədəni kontekstin təsiri ilə spesifik xüsusiyyətlər kəsb etmişdir. Fərdin daxili aləminin, hiss və duyğularının estetik dəyərləndirilməsi əsasında formalaşan bu cərəyan, milli ədəbiyyatın ideya-tematik və üslubi zənginliyinə töhfə verməklə bərabər, həm də ictimai-mənəvi problemlərin bədii təcəssümündə əhəmiyyətli rol oynamışdır.

***Tədqiqatın elmi yeniliyi:*** Tədqiqatın əsas elmi yeniliyi ondan ibarətdir ki, Azərbaycan ədəbiyyatında sentimentalizmin yalnız üslubi element kimi deyil, müəyyən tarixi-mədəni şəraitdə formalaşaraq müstəqil ədəbi cərəyan səviyyəsinə yüksəlməsi faktlarla əsaslandırılmış və bu cərəyanın konkret nümayəndələrinin (İ.Qutqaşınlı, A.Divanbəyoğlu, C.Cabbarlı və b.) əsərləri ingilis sentimentalizmi kontekstində sistemli şəkildə müqayisəli təhlilə cəlb olunmuşdur.

***İşin tətbiqi əhəmiyyəti:*** Məqalə filologiya, ədəbiyyatşünaslıq və müqayisəli ədəbiyyat sahələrində aparılan elmi araşdırmalar üçün faydalı mənbə ola bilər, eyni zamanda ali təhsil müəssisələrinin müvafiq ixtisaslarında sentimentalizmə dair fənn proqramlarının, dərs vəsaitlərinin və metodik materialların hazırlanmasında praktik material kimi istifadə edilə bilər.

## Ədəbiyyat


1. Babazadə, B. Azərbaycan sentimentalizmi / B.Babazadə, –Bakı: Bakı Universiteti nəşr., – 2003, – 59 s. http://web2.anl.az:81/read/page.php?bibid=2075&pno=22
2. Divanbəyoğlu, A. Can yanğısı / A.Divanbəyoğlu. URL: https://kulis.az/xeber/retro/can-yangisi-abdulla-bey-divanbeyoglunun-hekayesi-14659
3. Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatında sentimentalizm ədəbi cərəyanının təzahür formaları və əsas simaları. Türkolojiye adanmış bir ömür – Attila Jorma Armağanı. – İstanbul: – 2022, – 696 s.
4. Həşimov, H. Azərbaycan ədəbiyyatında sentimentalizm: // filologiya elmlər namizədi alimlik dərəcəsi almaq üçün dis. / – Bakı. – 1998. – 199 s.
5. Qasımzadə, F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi / F.Qasımzadə, – Bakı: Elm və təhsil, – 2017, – 552 s.
6. Qaragözova, E. Sentimentalizm: Azərbaycan modeli – Abdulla bəy Divanbəyoğlu // Ədəbiyyat. – 2022, – s. 25. URL: https://www.anl.az/down/meqale/edebiyyat/2022/yanvar/778881.htm
7. Qutqaşınlı, İ. Əsərləri / İ. Qutqaşınlı, – Bakı: Lider. – 2005. – 113 s. URL: https://anl.az/el/q/qi_e.pdf
8. M.Cəlal, Ədəbiyyatşünaslığın əsasları / M.Cəlal, P.Xəlilov. – Bakı: Çaşıoğlu. – 2005, – 311 s.


**I.A.Jafarova**

**Moral-aesthetic Paradigms of Sentimentalism in Azerbaijani and English Literature**

***Summary***

The article systematically analyzes the formation and development directions of sentimentalism in Azerbaijani literature against the background of its formation and aesthetic principles in European literature, draws ideological and aesthetic parallels between English and Azerbaijani literature, and identifies the forms of manifestation of sentimentalism in our national literature. The article also

analyzes the mutual relations of the sentimentalism movement with enlightenment and romanticism and its literary and aesthetic significance on scientific grounds.

***Key words:*** *sentimentalism, natural feelings, national-aesthetic characteristics, enlightenment*

**И.А.Джафарова**

**Нравственно-эстетические парадигмы сентиментализма в азербайджанской и английской литературах**

***Резюме***

В статье системно анализируются направления становления и развития сентиментализма в азербайджанской литературе на фоне его становления и эстетических принципов в европейской литературе, проводятся идейно-эстетические параллели между английской и азербайджанской литературой, выявляются формы проявления сентиментализма в нашей национальной литературе. В статье также анализируется связь сентиментализма с Просветительством и его литературно-эстетическое значение с научной точки зрения.

***Ключевые слова:*** *сентиментализм, естественные чувства, национально-эстетические особенности, просвещение*

*Rəyçi: fil.e.d., dos. F.Xəlilov*

*Redaksiyaya daxil olub: 15.05.2025*